**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 308**

**Bakı şəhəri, 18 iyul 2018-ci il**

**Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın tərkibi haqqında**

Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"nin 3-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya 11 nəfərdən ibarət aşağıdakı yeni tərkibdə təsdiq edilsin:

**Komissiyanın sədri**

| | |
|---|---|
| Əli Əhmədov | - Azərbaycan Respublikası Baş nazirinin müavini |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Ceyhun Bayramov | - təhsil naziri |
| Oqtay Şirəliyev | - səhiyyə naziri |
| Sahil Babayev | - əmək və əhalinin sosial müdafiəsi naziri |
| Əbülfəs Qarayev | - mədəniyyət naziri |

| | |
|---|---|
| Azad Rəhimov | - gənclər və idman naziri |
| Hicran Hüseynova | - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri |
| Musa Ələkbərov | - Nazirlər Kabineti Aparatının humanitar və sosial məsələlər şöbəsinin müdiri |
| Oruc Zalov | - daxili işlər nazirinin müavini |
| Fidumə Hüseynova | - Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini |
| Aqil Məhərrəmov | - Azərbaycan Uşaq Fondunun İdarə Heyətinin sədri. |

2. "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın tərkibi haqqında" Azərbaycan Respubikası Nazirlər Kabinetinin 2008-ci il 1 aprel tarixli 82 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 305) 1-ci hissəsi ləğv edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**